# Qarabağ Universitetində vakansiya – tədris məsələləri üzrə prorektor

**İşəgötürən:** "Qarabağ Universiteti" publik hüquqi şəxs

İşğaldan azad edilmiş ərazilərin iqtisadi potensialı, aparılan bərpa-quruculuq işləri, eləcə də əmək bazarının tələbləri nəzərə alınaraq regionun sosial-iqtisadi ehtiyaclarına uyğun yüksəkixtisaslı kadr tələbatının ödənilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 28 noyabr tarixli Sərəncamı ilə Qarabağ Universiteti yaradılıb.

Universitet Xankəndi şəhərində fəaliyyət göstərəcək.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 fevral 2024-cü il tarixli 73 nömrəli Qərarı ilə təsdiq olunmuş "Qarabağ Universitetinin Nizamnaməsi"nə əsasən, ali təhsilin bütün səviyyələri üzrə genişprofilli mütəxəssislərin və yüksəkixtisaslı elmi kadrların hazırlanması, eləcə də orta ixtisas və əlavə təhsil proqramlarının həyata keçirilməsi və elmin müxtəlif sahələri ilə bağlı tədqiqatların aparılması universitetin fəaliyyət istiqamətlərinə aid edilib. Universitet fəaliyyətinin beynəlxalq standartlara uyğun təşkili, eləcə də təhsilalanların yüksəksəviyyəli bilik və bacarıqlarla təmin olunması məqsədilə yüksəkixtisaslı peşəkar kadrlar üçün vakansiya elan edir.

**Vəzifə:** tədris məsələləri üzrə prorektor

**İşin təsviri:**
- müəssisələrin, fakültə və kafedraların tədris, tədris-metodiki və tərbiyəvi işlərinin təşkilinə, eyni zamanda tədris-köməkçi qurumların (tədris emalatxanaları, tədris təsərrüfatları və s.) işinə rəhbərlik edir;
- təhsildə keyfiyyətin yüksəldilməsi üçün stimullaşdırıcı mexanizmlər tətbiq edir;
- adambaşına maliyyələşmə prinsipinin, təhsil sahəsində tədqiqatların, eləcə də innovativ fəaliyyəti təşviq edən qrant maliyyələşdirməsinin tətbiqini genişləndirir;
- tələbələrin tədrisinə və istehsalat təcrübələrinin keçirilməsinə nəzarət edir;
- tədris-metodiki konfransların təşkilinə rəhbərlik edir.

**Bilməlidir:**
- "Təhsil haqqında" və "Elm haqqında" Azərbaycan Respublikasının qanunlarını; elm və təhsil sahəsinə aid Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını;
- Azərbaycan Respublikası Nazirlər Kabinetinin aidiyyəti qərar və sərəncamlarını;
- Azərbaycan Respublikasının təhsil sahəsi üzrə mərkəzi icra hakimiyyəti orqanının aidiyyəti qərar, sərəncam və əmrlərini;
- sosial-iqtisadi inkişaf tələblərinə uyğun bilik və bacarığa malik mütəxəssis yetişdirilməsi üçün lazımi məlumatları;

- ali təhsil üzrə təsdiq edilən dövlət təhsil standartları və proqramlarını (kurikulumları);
- aparılan elmi tədqiqatların müasir standartlar səviyyəsinə çatdırılmasını, elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesi və istehsalatda tətbiqinin təşkil olunmasını;
- ali məktəb pedaqogikası və psixologiyasını, ixtisaslar üzrə dövlət standartlarını, tədris planları, proqramların tərtib və tətbiqini;
- tibbi-gigiyena normalarını;
- ali təhsil sahəsindəki son nailiyyətləri;
- təhsilin iqtisadiyyatı və maliyyə-təsərrüfat fəaliyyətinin əsaslarını;
- tədris prosesinin təşkili və idarə olunması məsələlərini;
- əməyin mühafizəsi, təhlükəsizlik texnikası, sanitar-gigiyena və yanğından mühafizə norma və qaydalarını.

**Tələblər:**
- elmi dərəcə və ya elmi ad;
- ali təhsil müəssisələrində pedaqoji və ya rəhbər vəzifələrdə minimum 5 il əmək stajı;
- ən azı B2 səviyyəsində ingilis dili bilikləri (digər xarici dil biliklərinin olması arzuolunandır);
- liderlik və idarəetmə bacarığı;
- innovativ, interaktiv metod və texnologiyalardan istifadə bacarığı;
- tələbəyönümlü və səriştəəsaslı tədris yanaşmalarından istifadə bacarığı;
- yüksək kommunikasiya bacarığı.

**Tələb olunan sənədlər:**
1. tərcümeyi-hal;
2. ali təhsili təsdiq edən sənədlərin surəti;
3. dərc olunmuş elmi məqalələrin siyahısı;
4. müşayiətedici məktub (motivasiya, proqramlarla bağlı baxış – maksimum 500 söz);
5. tövsiyə edən şəxslər barədə məlumat (2 nəfər).

***Qeyd 1:*** *universitetdə daimi əsaslarla işləyən əməkdaşlar Xankəndi şəhərində tədris ilinin əvvəlindən başlayaraq işlədikləri müddətdə mənzillə təmin olunacaqlar.*

***Qeyd 2:*** *məktubun mövzu hissəsində müraciət olunan vakansiyanın adının qeyd olunması vacibdir. Bildiririk ki, yalnız müvafiq vakansiyanın tələblərinə uyğun namizədlərlə əlaqə saxlanılacaq.*

**Rəqabətədavamlı əməkhaqqı təklif olunur.**

**Müraciət üçün son tarix: 8 iyul 2024-cü il**

**Elektron poçt ünvanı: karabakh@edu.gov.az**